**UOT: 727/479.243/ “94-99”**

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİ QƏZALARININ TARİXİNDƏN

**N.R.MƏMMƏDOV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***Memmedov-n.@yahoo.com.***

*Məqalədə Azərbaycanın Qarabağ bölgəsindəki Şuşa, Cəbrayıl, Zəngəzur, Cavanşir qəzaları haqqında yığcam məlumat verilir və qəzaların ərazisi, təbii-coğrafi xüsusiyyətləri, əhalisi, təsərrüfatı, burada baş verən sosial-siyasi proseslər mənbələrə əsaslanaraq tədqiq olunur.*

**Açar sözlər:** Rusiya imperiyası, siyasi, iqtisadi, ictimai, Qarabağ, qəza, Azərbaycan

Qarabağ Azərbaycanın münbit torpaqlara, bol yeraltı və yerüstü təbii sərvətlərə, zəngin flora və faunaya malik qədim yaşayış məskənidir. Qarabağ adı təxminən VII əsrdə işlənmişdir. Qarabağ adı əvvəlcə konkret məkanı bildirmiş, sonra isə geniş coğrafi əraziyə aid edilmişdir. Apardığımız tədqiqatlara görə ilk zamanlar Qarabağ adlı şəhər olmuş və sonralar bu şəhər müharibələr nəticəsində dağıdılmışdır. Belə ki, coğrafşünas toponomist alim R.Yüzbaşova görə «Araz çayı sahilində Qarabağ şəhəri olmuş, bu şəhər XVII əsrin birinci yarısına qədər fəaliyyət göstərmiş və həmin vaxtdan müharibələr nəticəsində dağıdılmışdır». R.Yüzbaşovun bu fikrini on XVII əsrdə yaşamış alman səyyahı Adam Oleari (1603-1671) də təsdiqləmişdir. A.Olearinin XVII əsrə aid «İran səltənəti» adlı xəritəsində Qarabağı otuz doqquzuncu şimal ön dairəsi ilə səksən iki və iyirminci şərq uzunluğu dairəsinin kəsişdiyi nöqtədə göstərmişdir [38, 92-93].

Qarabağ toponiminə gəldikdə isə bu söz «qara» və «bağ» söz birləşməsindən yaranmışdır ki, mənası qalın, böyük, səfalı bağ deməkdir. Qarabağın qədim adı olan «Arsax» isə Albaniyanın əyalətlərindən biri olmuş Qarabağın Dağlıq və Mil düzünün bir hissəsini əhatə etmişdir. «Arsax» sözünün mənasına gəldikdə isə AMEA-nın müxbir üzvü, t.ü.e.d., professor, Əməkdar elm xadimi Y.M.Mahmudovun, t.ü.e.d., professor K.K.Şükürovun, professor M.Ə.Seyidovun, tədqiqatçı alim C.Cəfərovun elmi tədqiqatlarında sözün etimologiyası

«İgid», «Sak kişisi», «Ərtoğrul» mənasını verməklə yanaşı sırf türk mənşəli söz olması göstərilir [25, 11].

Qarabağ qədim zamanlardan Azərbaycanın tarixi bölgəsi olmuşdur. Vaxtilə Qarabağ xanının vəziri olmuş Mirzə Camal Cavanşir «Qarabağ tarixi» kitabında Qarabağın tarixi-coğrafi əraziləri, sərhədləri barədə müyəssər məlumat verərək yazmışdır: «Mənbələrin məlumatına görə Qarabağ vilayətinin sərhədləri belədir: Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər – Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmşəddin və Dəmirçi-Həsənli camaatı arasındadır və Rus dövlət məmurları onu «Krasnı most» yəni «Qırmızı körpü» adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər – Coran çayıdır ki, Kür çayı çox yerdən keçib Araz çayına çatır. Qərb tərəfdən Küsbək, Salavartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır» [24, 11].

Qarabağ Azərbaycanın və həm də dünyanın ən qədim tarixə malik olan yaşayış məskənlərindən biridir. 1968-ci ildə Azıx mağarasında aparılmış arxeoloji tədqiqatlar nəticəsində buradan insanın alt çənə sümüyü tapılmışdır. Azıx adamının 350-400 min il əvvəl yaşadığı sübuta yetirilmişdir. Azıx mağarasından tapılmış qədim maddi-mədəniyyət nümunələri dünya üzrə insanların inkişaf prosesini öyrənmək üçün mühüm əhəmiyyət kəsb edir. Qarabağda aparılan arxeoloji tədqiqatlar buradan «orta daş dövrü», «mis-daş dövrü», «son tunc» və «ilk dəmir dövrlərinə» aid tapılmış qədim tapıntılar inkişafı sübut etməklə yanaşı həm də Yaxın Şərqlə iqtisadi və mədəni əlaqələrin olduğunu təsdiqləyir [31].

Qarabağ tarixi etnoqrafik əyalət kimi əvvəlcə Albaniyanın, sonra isə bütün Azərbaycanla birlikdə ardıcıl olaraq Ərəblərin, Sacilərin, Salarilərin, Şəddadilərin, Atabəy-Eldəgizlərin, Hülakilərin, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil olmuşdu. Səfəvilər dövründə Qarabağ ərazisində mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyiliyi yaranmışdır ki, bu bəylərbəyiliyin Şimal sərhədləri Gürcüstanın Samxet dağlarına qədər çatırdı. Qaynaqların məlumatına görə, 1736-cı ildə Nadir şah onun əleyhinə çıxmış Gəncə xan sülaləsini cəzalandırmaq üçün Qazax və Borçalı mahalını Qarabağ bəylərbəyiliyindən alıb Gürcüstana vermişdir. Şəddadilər dövləti isə bütövlükdə Qarabağ bəylərbəyiliyinin ərazisini əhatə etmişdir. XVII əsrin sonlarından XVIII əsrin ortalarınadək Azərbaycan feodal dövlətlərə – xanlıqlara parçalanan zaman Qarabağ bəylərbəyiliyi ərazisində Qarabağ və Gəncə xanlıqları yaranmışdır. Müxtəlif dövrlərdə Qarabağın sərhədləri qismən dəyişsə də, bölgənin özünəməxsus ənənəvi təsərrüfatı, maddi və mənəvi mədəniyyət xüsusiyyətləri yaşamış, inkişaf etmişdir.

Xanlıqlar dövründə Qarabağ on yeddi mahala bölünmüşdür ki, bu mahallar aşağıdakılar idi: Dizax, Acan-türk, Vərənd, Qaraçorlu, İyirmidörd, Sisian, Dəmirçi-Aslanlı, Güpara, Bərgüşad, Bahabyurd, Kəbirli, Talış, Otuziki, Xırdapara Dizax, Çiləbird, Xaçın, Cavanşir. Tədqiqatlardan məlum olur ki, yuxarıda

adıgedən on iki mahalın əhalisi bütövlükdə azərbaycanlılardan ibarət idi [15, 18]. Qarabağın Talış, Xaçın, Çiləbird, Vərənd, Dizax məlikliklərі «Xəmsə» adlanırdı ki, bunların əhalisinin cüzi bir hissəsini xristianlar təşkil edirdi.

A.Ş.Milman «XIX-XX əsrin əvvəllərində Azərbaycanda siyasi vəziyyət» (Bakı, 1966) əsərində Qarabağda 21 mahalın olduğunu, Ə.Cavanşiroğlu isə «Cavanşir-Dizay mahalı» (Bakı, 2012) əsərində 25 mahalın olduğunu göstərirlər [22]. Onlar bir neçə mahalın adını geniş yazsalar da, X.Xəlilov «Qarabağın elat dünyası» əsərində bu mahalların 12 olduğunu göstərmişdir [25]. Lakin bütün əsərlərdə sərhədlər dəyişməz olaraq təqdim edilmişdir.

Qarabağ özünəməxsus maddi və mənəvi mədəniyyəti, ölçü və çəki sistemi, yüksək ənənəvi əkinçilik, heyvandarlıq təsərrüfatı ilə bütün dünyada tanınırdı və özünün bütün komponentləri ilə Azərbaycan xalqına məxsus idi. Qarabağın maddi və mənəvi mədəniyyətinin spesifik - özünəməxsus xüsusiyyətləri müxtəlif mənbələrdə öz əksini tapmışdır. Belə ki, «Azərbaycan dili tarixi» (Bakı, Elm, 1983) kitabının müəllifləri olan T.Hacıyev və K.Vəliyev göstərmişlər ki, «Mənəvi mədəniyyətin ən mühüm sahələrində tarixən Qarabağ spesifik xüsusiyyətlərə malik olmuşdur… Hələ XVII-XVIII əsrlərdə Azərbaycan ədəbi dilində ahəng qanunu, məhz Qarabağ dialektinin təsiri ilə ardıcıllaşmışdır [13, 50]. Qarabağ şairlərini birləşdirən «Məclisi-Üns» və «Məclisi-Fərmuşan» öz üsulu ilə seçilirdi. Qarabağ musiqi məktəbi isə bütün Şərq aləmində məşhur idi. Görkəmli musiqişünas V.Vinaqradov «Üzeyir Hacıbəyov və Azərbaycan musiqisi» (Bakı, 1938) adlı əsərində yuxarıda adıgedən məsələyə aydınlıq gətirərək yazırdı ki, «Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər. Qarabağın baş şəhəri olan Şuşa Zaqafqaziyanın konservatoriyası idi [35, 9]. Mötəbər tarixi məlumatlara əsaslanaraq Qarabağ əhalisinin təsərrüfat, maddi və mənəvi mədəniyyətinə, inam və etiqadlarına aid zəngin məlumatları təhlil edən İ.P.Petruşevski «Dağlıq Qarabağ əhalisinin xristianlaşmaya qədər etiqadı» (Bakı, 1930) adı əsərində haqlı olaraq belə qənaətə gəlir ki, «Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır… Qarabağ mədəniyyəti vahid mədəniyyət olub Azərbaycan xalqına məxsusdur» [28, 76].

XIX yüzilliyin əvvəllərindən Rusiyanın Azərbaycanı işğal etməsi planlı və ardıcıl surətdə həyata keçirilmişdir. 1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı Rusiya dövləti tərəfindən işğal edildi. Elə həmin vaxt Qafqaz qoşunlarının baş komandanı Sisianov mərkəzə yazdığı (22.05.1805-ci il) raportunda göstərirdi ki, Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı hesab edilir, bu səbəbdən də, strateji əhəmiyyətli Qarabağı itaətdə saxlamalı və burada öz mövqelərimizi möhkəmləndirməyə daha çox cəhd göstərməliyik [32]. X.M.İbrahimli «Rusiya və Azərbaycan XIX yüzilliyin birinci yarısında (Moskva, 1869) adlı əsərində yazır ki, 1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı faktiki olaraq Rusiyaya ilhaq edildi. Xan hakimiyyətinin 17 il saxlanılmasına baxmayaraq, bu müəyyən strateji

məqsəd daşıyırdı. 1806-cı ildə İbrahim xanın qətli Rusiyanın heç bir qanuna məhəl qoymadığını nümayiş etdirdi [s.79-80]. Mehdiqulu xanın (1806-1822) hakimiyyəti dövründə Çar hökuməti işğal rejimini gücləndirir və ərazidə möhkəmlənmək üçün müsəlman hakim təbəqələrinin mövqelərini zəiflətməyə, erməniləri mənsəb sahibi etməyə başladılar. 1822-ci ildə Qarabağ xanlığı ləğv edilib və əvəzində Qarabağ əyaləti (komendant idarə üsulu) yaradıldı. Qarabağ əyaləti mərkəzi Şuşa şəhəri olan Hərbi Müsəlman Dairəsinin tərkibinə tabe edilmişdir. Y.Mahmudov və K.Şükürov «Qarabağ: real tarix-faktlar-sənədlər» (Bakı, 2009) adlı əsərində yazırlar ki, «Yeni yaradılan dairənin də məhz «Hərbi Müsəlman Dairəsi» adlandırılması Qarabağın Azərbaycan xalqına məxsus olduğunu sübut edən daha bir təkzibolunmaz faktdır» [25, 30].

Çarizm Qarabağda müstəmləkə əleyhinə baş verən üsyanı yatırsa da, xalqın qəzəbini söndürə bilmədi. Çünki narazılığı doğuran sosial-iqtisadi və siyasi səbəblər qalmaqda idi. Siyasi böhranın səbəblərini araşdıran ali rütbəli məmurlar (İ.F.Paskeviç, P.İ.Kutaysov, Y.İ.Mecnikov, İ.İ.Vasilçikov, P.V.Qan və b.) çarı inandırdılar ki, Azərbaycandakı mövcud idarə qaydası dəyişilmədən nə xalqı sakitləşdirmək, nə də çarizmin müstəmləkəçilik mövqeyini möhkəmləndirmək mümkün olacaqdır. Mənbələrə əsaslanaraq araşdırmışıq ki, əslən erməni olan general-leytenant V.Q.Mədətov Qarabağda əlində müstəsna hakimiyyət cəmləşdirmiş, əhalidən yığılan vergi və rüsumları acgözlüklə mənimsəmiş, xəzinənin torpaqlarını və vəsaitini talan etmişdir. Çar hökuməti vəziyyətdən çıxmaq üçün 10 aprel 1840-cı ildə inzibati-hərbi islahat keçirdi. İslahata görə Cənubi Qafqaz diyarı Gürcü İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər Vilayətinə bölündü. Xəzər Vilayətində 7 qəza, 32 nahiyə təşkil olundu. O cümlədən Qarabağ əyaləti Şuşa qəzasına çevrildi və Xəzər Vilayətinə daxil edildi. «Parçala və hökmranlıq et» prinsipini əsas tutaraq yaradılmış bu inzibati bölgü ilə Azərbaycanın bütövlüyü və tarixən ənənəvi sərhədləri pozuldu. Hər yerdə imperiya qanunları rəhbər tutulur, məsul vəzifələrə ermənilər və ruslar təyin edilir və hətta Azərbaycanı imperiya ilə «Vahid bir orqanizm halında formalaşdırmaq və oradakı sakinləri rus kimi danışmağa, düşünməyə və duymağa məcbur etmək» nəzərdə tutulurdu. Bu, əslində Rusiyanın Qarabağda ruslaşdırma, erməniləşdirmə və xristianlaşdırma siyasəti idi və sözsüz ki, bütün bunlar xalqımız üçün gələcəkdə ağır nəticələrini verməli idi və verdi də. XIX əsrin ortalarında Qarabağda yaranmış qəzalardan biri Şuşa qəzası olmuşdu. Şuşa qəzası – Cavanşir, Göyçay, Cavad, Cəbrayıl, Zəngəzur qəzaları ilə həmsərhəd idi. Qəzanın mərkəzi Şuşa şəhəri olmuşdu. 1846-cı il inzibati ərazi bölgüsü zamanı Şuşa qəzası yeni yaradılmış Şamaxı quberniyasına, 1859-cu ildə isə Bakı quberniyasına tabe edildi. 1867-ci ildə Yelizavetpol quberniyası yaradıldıqda Şuşa qəzası onun tərkibinə verilir və ərazi bölünərkən burada daha üç qəza – Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları da təşkil edilir. Bununla da, Şuşa qəzası vahid inzibati-siyasi idarəsini itirir. Belə bir inzibati ərazi bölgüsü xüsusi məqsədlə həyata keçirilmiş və ermənilərin Qarabağın idarəçilik sistemində geniş təmsil olunmalarına hərtərəfli imkanlar

yaratmışdır. Şuşa qəzasını qəza rəisi, qəza rəisinin müavini, xəzinədar, məntəqə iclasçıları və şəhər polisi idarə edirdi. Şuşa qəzasında məhkəmə də yaradılmışdı. 1897-ci il məlumatına görə Şuşa qəzasının sahəsi 4911 kvadrat kilometr, əhalisi 140740 nəfər idi ki, bunun təxminən 66 min nəfərini azərbaycanlılar, 75 min nəfərini ermənilər təşkil edirdi. 1917-ci il «Qafqaz təqvimi»ndə göstərilir ki, 1917-ci ildə Şuşa qəzasında 144876 nəfər əhali yaşayırdı ki, bunun 66501 nəfərini azərbaycanlılar 75413 nəfərini ermənilər təşkil edirdi (s.190-197). Halbuki, Yermolov və Mogilovski tərəfindən 1823-cü ildə «Qarabağ əyalətinin vergi dəftərləri» kitabında göstərilir ki, Qarabağ əyalətində olan 20095 ailədən 15729 azərbaycanlı, 4366-sı erməni idi (s.17). A.P.Yermolova, N.N.Şavrova, «Qafqaz dəftərlərinə» və digər mənbələrə əsaslanaraq deyə bilərik ki, XIX yüzillik ərzində Zaqafqaziyaya dünyanın müxtəlif dövlətlərindən 1 milyondan çox erməni köçürülmüşdür. 1828-1830-cu illərdə Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min ermənin köçürülməsini nəzərə alınsa, əsrin ilk əvvəllərində burada ermənilərin sayının çox cüzi olduğunu deməyə əsas verir. Şuşa qəzasının təsərrüfatında əkinçilik, maldarlıq, ipəkçilik, üzümçülük, bağçılıq əsas yer tuturdu. Qəzada toxuculuq (xüsusilə, xalça, ip, mahud və s.) geniş yayılmışdır. 1923-cü ildə Azərbaycan SSR tərkibində məqsədli şəkildə DQMV təşkil edildi və 1924-cü ildə DQMV haqqında «Əsasnamə» qəbul olundu ki, bu üzdəniraq «qanun»a görə Şuşa qəzasından Şuşa şəhəri, Xankəndi və qəzanın 115 kəndi Dağlıq Qarabağa verildi [ARPİİSSA, f.1, 74, i.137, v.30,56]. 1929-cu ildə Şuşa qəzası ləğv edildi və DQMV-dən qalan kəndlər Qarabağ mahalına tabe edildi.

Qarabağın qəzalarından biri də Cəbrayıl qəzası idi. Cəbrayıl qəzası 1873-cü ildə Yelizavetpol quberniyası tərkibində yaradılmışdı. Cəbrayıl qəzası İranla, Şuşa qəzası, Zəngəzur qəzası, Cavad qəzası ilə həmsərhəd idi. Qəzanın mərkəzi Cəbrayıl məntəqəsi olmuşdur. 1905-ci ildən Cəbrayıl qəzası Qaryagin qəzası (indiki Füzuli) adlandırılmışdır. Qəza idarəsinə – qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları və şəhər polisi daxil idi. Qəzada hakimiyyət qəza rəisinin əlində cəmləşmişdi. Qəzada yaradılmış məhkəmə, qəzanın idarə olunmasında da iştirak edirdi. Apardığımız araşdırmalardan məlum olur ki, Cəbrayıl qəzasının aborigen əhalisi idarə işlərində iştirak etmək hüququndan məhrum idilər. Çox az miqdarda azərbaycanlı, qəza mərkəzlərindəki inzibati idarələrdə və polis idarələrində işləyirdi. İnzibati ərazi dəyişiklikləri edilərkən əhalinin milli tərkibi, məişəti, iqtisadi həyat tərzi, maraq və mənafeləri nəzərə alınmır, onların heç bir rəyi soruşulmurdu. Qəzada keçirilən bütün islahatlar müstəmləkə hakimiyyətinin möhkəmləndirilməsinə xidmət edirdi.

1897-ci il məlumatına görə Cəbrayıl qəzasının sahəsi 3332 kvadrat kilometr, əhalisi 66 min nəfərdən çox olmuşdur. «1917-ci il Qafqaz təqviminə» görə ermənilərin qəzaya köçürülməsi hesabına burada həm əhalinin ümumi sayı, həm də ermənilərin sayı artmışdır. Belə ki, «Təqvim»də göstərilir ki, 1917-ci ildə Cəbrayıl qəzasında 89584 nəfər əhali yaşayırdı ki, bundan 65587

nəfərini azərbaycanlılar, 21755 nəfərini ermənilər, yerdə qalanını isə digər millətlər təşkil etmişdir [19, 195].

XIX yüzilliyin 70-ci illərində həyata keçirilən kəndli islahından sonra bütün Azərbaycanda, o cümlədən Cəbrayıl qəzasının kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı əhəmiyyətli dərəcədə sürətlənmişdi. Bunun nəticəsində Cəbrayıl qəzasının kəndlərində bir sıra dəyişikliklər baş verdi: Kənd təsərrüfatında təkmil alətlərin tətbiqi, ticarət əkinçiliyinin genişlənməsi, təsərrüfatın bəzi sahələrinin məhsul istehsalında ixtisaslaşması başlandı. Cəbrayıl qəzasında kənd təsərrüfatında maldarlıq, əkinçilik, bağçılıq, ipəkçilik aparıcı rol oynayırdı. XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəllərində Cəbrayıl qəzasında pambıqçılıq kənd təsərrüfatının gəlirli sahələrindən birinə çevrilmişdi. Pambıqçılıq təsərrüfatı ticarət əkinçiliyinin ən yaxşı nümunəsi idi. Burada muzdlu əməkdən hərtərəfli istifadə olunurdu.

Cəbrayıl qəzasında üzümçülük də xeyli inkişaf etmişdi. Qəzada kənd təsərrüfatında maldarlıq əkinçilikdən sonra ikinci yerdə gedirdi. Dəmir yolunun çəkilməsi, satlıq mal-qaranın və maldarlıq məhsullarının daşınmasını asanlaşdıraraq, bu sahənin inkişafına təkan vermişdi. Cəbrayıl qəzası qədimdən maldarlığın geniş yayıldığı bir bölgə kimi, islahatdan sonrakı dövrdə də aparıcı yerdə gedirdi. Burada mal-qara, at və davar saxlanılırdı. Maldarların böyük əksəriyyəti, əvvəllərdə olduğu kimi, köçmə maldarlığı ilə məşğul olurdu. Baytarlıq işlərinin zəifliyi, yoluxucu xəstəliklər maldarlığın inkişafına mane olurdu.

Azərbaycanın Qarabağ bölgəsinin qəzalarından biri də, Zəngəzur olmuşdur. 1868-ci ildə Yelizavetpol quberniyası təşkil olunarkən yeni yaranmış Zəngəzur qəzası da ora daxil edilmişdir. Qəzanın inzibati mərkəzi Gorus şəhəri idi. Gorus Azərbaycanın qədim yaşayış məskəni olmaqla dəniz səthindən 1300 metr hündürlükdə, dağlar arasında yerləşir. Gorus Azərbaycanın ən səfalı yerlərindən biri olmuşdur. Şəhərin şimal tərəfində dəniz səviyyəsindən 3 min metr hündürlükdə olan Keçəldağ yerləşir. Şəhərin cənubundan Gorus çayı Kərovuç dərəsi ilə axıb Vorotan çayına tökülür. Çayın sürətli axımı 1898-ci ildə burada Su-Elektrik Stansiyasının tikilməsi üçün şərait yaratmışdır. Şəhər hər tərəfdən su və qiymətli meşələrlə əhatə olunmuşdur. Çox təəssüflər olsun ki, Azərbaycanın təbii sərvətlərlə zəngin olan qədim yaşayış məskəni, XX yüzilliyin əvvəllərində Ermənistana bağışlanmışdı. Zəngəzur qəzası Sisian, Gorus, Qafan, Mehri, Zəngilan, Qubadlı və Laçın ərazilərini əhatə edirdi. Zəngəzur qəzası, Zəngəzur, Artiz, Salıq, Mekiz, Kəpəz, Keçəldağ, Xustun dağları ilə əhatə olunmuşdu. Dəniz səthindən 3906 metr yüksəklikdə yerləşən bu dağlar ilin əksər vaxtlarında göy dumana bürünür və qarla örtülü olurdu.

Zəngəzur qəzasının ərazisi 7892 kvadrat kilometr idi. Qəzanı qərbdən Zəngəzur, Şərqdən Qarabağ dağları, şimaldan Qarabağ yaylaları, cənubdan Araz çayı əhatə etmişdir. Zəngəzurun hər tərəfdən dağlarla əhatə olunması burada çox möhkəm təbii bir istehkamın mövcudluğundan xəbər verir. Təsadüfi deyildir ki, tarixən xarici qəsbkarın hücumlarından müdafiə üçün bu etibarlı sığınacaqdan istifadə edilmişdir. Davud bəy, Qaçaq Nəbi, Şəmil bəy,

Fərzəli bəy Zəngəzur dağlarında, meşələrində məskən salıb mübarizə aparmışlar. Zəngəzurun bol, keyfiyyətli təbii biçənəkləri, sərin saf suyu və havası, ucsuz-bucaqsız yaylaqları bölgədə heyvandarlığın inkişafına şərait yaratmaqla yanaşı, həm də qonşu ətraf qəzaların mal-qarası üçün bol otlaq yeri rolunu oynamışdır.

Zəngəzur qəzasının qalın meşələrində müxtəlif növ ağaclar bitirdi. XIX yüzilliyin əvvəllərində Zəngəzur qəzasında 155.000 desyatin meşə var idi. ARDTA-də saxlanılan sənədlərdən birində göstərilir ki, XX yüzilliyin əvvəllərində Zəngəzur meşələrində bitən qiymətli ağaclar kəsilərək tikinti materialı və odun kimi Gorus və Qafana daşınmış, artıq 1920-ci ildə burada meşə sahəsi yarıbayarı azalaraq 84625 desyatinə enmişdir [f.1038, 1, i.26, v.35].

XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində Zəngəzur qəzasında çəltik əkilir, bağ və bostan bitkiləri yetişdirilirdi. Bunun üçün Araz, Bərgüşad, Həkəri çaylarının sularından istifadə olunurdu. Torpaq xışla şumlanır, buğda, arpa, darı, düyü, pambıq əkilirdi. Düzənlik sahələrdə isə ərik, şaftalı, armud, alma, gilas, gilənar və digər meyvələr yetişdirilirdi. Onu da qeyd edək ki, Zəngəzur qəzasında pambıq əkini ilə yalnız Mehri, Aldərə, Nüvədi və Lehvaz kəndləri məşğul olurdular. 1884-cü il məlumatına görə bölgədə cəmi 200 desyatin sahədə pambıq əkilmişdi. Əhalinin əsas məşğuliyyət sahəsindən biri də ipəkçilik idi.

ARPİİSSA-də saxlanılan sənədlərdən birindən oxuyuruq: «Zəngəzurda ağac əşyalar, qab-qacaq düzəltmək, şal və xalça toxumaq, kömür yandırmaq peşəsi geniş yayılmışdı … Burada əhalinin mövsümü işi duz daşımaq idi. Həmçinin Qafanın Kovdar kəndində bol mis yataqları da var idi ki, buradan çıxarılan filiz Rusiyaya daşınırdı [ARPİİSSA, f.1, s. 125, i.498, v.2].

«Azərbaycan Mərkəzi Statistika İdarəsinin Xəbərləri»ndə XX yüzilliyin əvvəllərində Zəngəzur qəzasındakı müxtəlif torpaq sahələri haqqında müyəssər məlumatlar verilmişdir: «1917-ci ildə Zəngəzur qəzasında 2222 desyatin malikanə, 1939 desyatin bağ, 115224 desyatin əkin yeri, 3250 desyatin biçənək, 84625 desyatin meşə və kolluq, 130258 desyatin otlaq, 141277 yaylaq otlağı və 17749 desyatin başqa torpaqlar var idi [1, 7]. Qeyd edək ki, sahibkar (varlı) kəndlilərin yaranması və torpaqların əksəriyyətini öz əllərində cəmləşdirməsi isə Zəngəzur qəzasında dövlət torpaqlarının həcmi azalmışdı. Tədqiqatlardan məlum olur ki, 1885-ci ildə Zəngəzur qəzasında 64443 desyatin dövlət əkin sahəsi var idisə, 1917-ci ildə onun həcmi 17 dəfə azalaraq 4018 desyatinə enmişdir. Apardığımız tədqiqatlardan məlum olur ki, Sultanovların, Cavanşirovların, Behbudbəyovların, Ağalarbəyovların, Hacıbəyovların qədim ata-baba mülkləri, bölgəyə yenicə köçürülmüş milliyyətcə erməni olan Qrbelyanlara, Kələntərovlara verilmişdir. Həmin vaxt Zəngəzurda torpaq-mülkiyyət məsələlərini öyrənən S.P.Zelinski yazırdı ki, Zəngəzurda çoxları (yeni əraziyə köçürülən ermənilər nəzərdə tutulurdu – N.M.) torpaq ələ keçirmək üçün heç bir şeydən çəkinmirlər …. Sözsüz ki, onlar tezliklə çox şey əldə edəcəklər, çünki onların yuxarılarda yaxşı müdafiəçiləri, yüzlərlə yalançı şahidləri və

saxta sənədləri var" [34, 19].

Apardığımız araşdırmalardan məlum olur ki, ermənilərin bölgəyə köçürülməsi ilə yanaşı, XIX yüzilliyin sonlarında çar hökuməti Zəngəzurdakı yerli müsəlman əhalisinin bölgədən deportasiya edilməsinə şərait yaratmışdır. Belə ki, Arxiv sənədlərindən birində göstərilir ki, 1884-cü ildə Zəngəzur qəza idarəsi (sözsüz ki bu idarədə əyləşənlərin çox böyük əksəriyyəti ermənilər və ruslar idi – N.M.) 2934 yerli zəngəzurlunun ərazini tərk etməsi üçün sənəd vermişdir… Onlar çörək pulu qazanmaq üçün Bakıya və Azərbaycanın digər bölgələrinə üz tutmuşdular [ARPİİSSA, f.1, s.85, i.241, v.269]. Təəssüflər olsun ki, bu proses sonrakı dövrlərdə də davam etmişdir.

Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları yenidən baş qaldırdı. Ermənilər Qarabağda hakimiyyətə yiyələnmək üçün əvvəllər başladıqları qırğınları AXC dövründə də davam etdirdilər. Azərbaycan hökuməti yaranmış vəziyyəti nəzərə alaraq 1919-cu ilin yanvarında Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general qubernatorluğu yaratdı. X.Sultanov həmin vəzifəyə təyin edildi. 1919-1920-ci illərdə Qarabağın bütün qəzalarında, o cümlədən Zəngəzurda ermənilər tərəfindən azərbaycanlılara qarşı qırğınlar törədildi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Mərkəzin Zəngəzura münasibətindəki mövqeyi dəyişdi. 1920-ci ilin 30 noyabrında Ermənistan Sovet Respublikası Zəngəzurun Ermənistana birləşdirilməsi ilə bağlı teleqramına cavab olaraq Azərbaycanın Zəngəzur qəzasından 3637 kvadrat verstlik hissəsi Ermənistana verildi. Bu «xəyanətkar səxavətlilik» Azərbaycana vurulan ən ağır zərbə, həyata keçirilən ən böyük düşmənçilik idi. Çünki bundan sonra Naxçıvanla Azərbaycanın digər torpaqları arasında əlaqə kəsildi və bu proses gələcəkdə ermənilərin məkrli niyyətlərinin reallaşması üçün hazırlıq xarakteri daşıyırdı. 1917 və 1921-ci illər kənd təsərrüfatının siyahıya alınması materialları əsasında nəşr edilmiş yaşayış məskənləri siyahısında 15 qəza göstərilir. Qarabağ ərazisində Cəbrayıl, Cavanşir, Qubadlı, Şuşa qəzaları ayrılır. Artıq Zəngəzur qəzası yox edilir. 1923-cü ildə DQMV yarandıqdan sonra (qeyd edək ki, Qubadlı qəzasında Qala dərəsi kəndi DQMV-ə verilmişdi). Qarabağda Qubadlı qəzası da ləğv edilir və beləliklə, Zəngəzur qəzasının varlığına son qoyulur [18]. Həmin vaxt Qarabağda Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları yaradılır (AzMİK-nin 06.08.1929-cu il qərarı).

1873-cü ildə Yelizavetpol quberniyası tərkibində yaradılmış Qarabağın qəzalarından biri də Cavanşir qəzası idi. Cavanşir qəzası Ərəş, Yelizavetpol, Zəngəzur, Şuşa qəzaları və eləcə də İrəvan quberniyası ilə həmsərhəd idi. Qəzanın mərkəzi Tərtər yaşayış məskəni olmuşdur. Qeyd edək ki, Cavanşir qəzasını Kəlbəcər, Ağdərə, Tərtər və Bərdə əraziləri əhatə edirdi. Qəza idarəsinə – qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları və polis daxil idi. Qəzada qədimdən yaşayan azərbaycanlılar idarə işlərində iştirak etmək hüququndan məhrum edilmişlər. Təsadüfi hallarda qəzanın inzibati və polis idarələrində azərbaycanlı işləyirdi. Qəzada yaradılmış məhkəmə qəzanın idarə olunmasında

da iştirak edirdi. Araşdırmalardan məlum olur ki, bütün qəzalarda, o cümlədən Cavanşir qəzasında hakimlər yalnız ruslardan təyin olunurdular. Məhkəmə iclasları rus dilində aparılırdı. Hakimlər çox vaxt xalqımızın milli adət-ənənələrinə hörmətsizlik edir, rüşvətxorluğa qurşanır, qanunsuz hərəkətlərə yol verirdilər. Şəhər idarəsinə başçılığı yüksək rütbəli çar məmurları həyata keçirirdilər. 1897-ci il məlumatına görə Cavanşir qəzasının sahəsi 5497 kvadrat kilometr, əhalisi 67005 nəfər idi. 1915-ci ildə isə Cavanşir qəzasında 69467 nəfər əhali yaşayırdı ki, bunlardan 46947 nəfərini azərbaycanlılar, 22008 nəfərini ermənilər təşkil edirdi [19, 225]. Faktlardan göründüyü kimi, ermənilər dünyanın müxtəlif dövlətlərindən bölgəyə köçürülmələrinə baxmayaraq yenə də onların sayı 2 dəfə az idi. 1924-cü il noyabrın 26-da dərc olunmuş DQMV-i haqqında «Əsasnaməsi»nə görə Cavanşir qəzasından 52 kənd Vilayətə birləşdirildi. Bununla da, Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri olan Qarabağ ərazisi parçalanaraq bir hissəsi Ermənistana verilmiş, digər hissəsində isə Muxtar Vilayət qurumu yaradılmışdı [18].

Cavanşir qəzasının təsərrüfatında əkinçilik, maldarlıq, bağçılıq, ipəkçilik əsas yer tuturdu. Qəzanın düzən hissəsində əhali pambıqçılıqla, dağlıq ərazilərində isə tütünçülüklə məşğul olurdular. Burada üzümçülük də xeyli inkişaf etmişdi.

Azərbaycanın Qarabağ bölgəsinin qəzalarında yaşayan əhalidən vergilər alınırdı. Burada yaşayan dövlət kəndlilərindən «həyat vergisi» adlanan pulla torpaq töycüsü alınırdı. Təəssüflər olsun ki, vergiyığanlar (ruslar və ermənilər) bölgədə yaşayan azərbaycanlılardan vergi yığılarkən onların əmlak vəziyyəti nəzərə alınmır, kəndlilərin üzərinə onların verməli olduqlarından xeyli artıq vergi qoyulurdu. Qarabağın sahibkar kəndliləri daha ağır vəziyyətdə idilər. Cüzi pay torpaqlarına malik olan azərbaycanlı kəndlilər ağır vergilər verməyə məcbur edilirdilər. Malcəhət və bəhrə vergiləri ilə yanaşı azərbaycanlılardan hərbi vergilər də alınırdı. Çar hökuməti azərbaycanlılara etibar etmədiyi üçün onları orduya çağırmırdı. Zadəgan uşaqları isə istisnalıq təşkil edirdi. Azərbaycanlılardan alınan hərbi vergilər çarizmin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasəti idi. Kəndlilərdən köçürmə fonduna da vergilər alınır və bölgəyə yeni köçürülən ermənilərə və ruslara verilir, onlar üçün yeni kəndlər yaradılırdı. Apardığımız tədqiqatlardan məlum olur ki, Qarabağın qəzalarına köçürülənlərin pay torpaqlarının sahəsi yerli kəndlilərin istifadəsində olan torpaq sahələrindən müqayisə olunmayacaq dərəcədə çox idi. Belə ki, Qarabağa köçürülən kəndliyə 37 desyatin pay torpağı verildiyi halda, yerli azərbaycanlı əhalisinin hər təsərrüfatının istifadəsində 2 desyatin torpaq sahəsi var idi.

Qeyd edək ki, Azərbaycanın Qarabağ bölgəsi Qəzalarının tarixi bu günə qədər müstəqil bir tədqiqat obyekti olmamış, problem sistemli şəkildə, bütöv tədqiq edilməmişdir. Ona görə də, dövlətimizin yaratdığı əlverişli şəraitdən istifadə edərək Azərbaycanın Qarabağ bölgəsi Qəzalarının tarixinə, tarixçilərimiz daha ciddi yanaşmalı, yaranan boşluğu aradan qaldırmalı və tarixşünaslığımızı yeni-obyektiv əsərlərlə zənginləşdirməlidirlər.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Mərkəzi Statistika İdarəsinin Xəbərləri. №3(5), Bakı: 1922, s.7.
2. ARPİİSSA, f. 1, s. 125, iş 438, v. 214, 160.
3. ARPİİSSA, f. 1, s. 125, iş 428, v. 12.
4. ARDA, f. 27, s. 3, i. 59, v. 4-5.
5. ARPİİSSA, f. 1, s. 123, iş 291, v. 29.
6. Azərbaycan tarixi. II cild. Bakı: 1964.
7. Axundov N. Qarabağ salnamələri. Bakı: Azərnəşr, 1989, s.4.
8. «Бакинский рабочий» qəzeti, 1921, 4 iyul.
9. Böyük Oktyabr Sosialist inqilabı və Ermənistanda sovet hakimiyyətinin qələbəsi. Sənədlər məcmuəsi. Erevan: 1957, 567 s.
10. «Бакинский рабочий» qəzeti, №35, 1975, 5 oktyabr.
11. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair. Bakı: 1989, s.159.
12. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı: 2000, s.5, 8, 9, 49.
13. Hacıyev T., Vəliyev K. Azərbaycan dili tarixi. Bakı: 1983, s.50.
14. Hacıyev Q. Qarabağ maddi və mənəvi mədəniyyəti. «Qarabağ suallar və faktlar». Bakı: 2005.
15. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı: ADN, 1992, 118 s.
16. Хан-Агров А.Е. Экономический быт государственных крестян Джаванширского уезда Елизаветпольской губернии. Т.6, Тифлис: 1887, с.339.
17. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatı. Bakı, 1960.
18. К истории образования Нагорно-Карабахской автономной области Азерб. ССР 1918-1925. Документы и материалы. Баку: 1989, с.86-133.
19. «Кавказский календарь за 1917 г. Тифлис – 1918 г., с.190-197.
20. Milman A.Ş. «XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda siyasi vəziyyət. Bakı, 1966.
21. Mahmudov Y. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: 1985.
22. Milman A. Политический строй Азербайджана в XIX - начале XX веков. Баку, 1966, с.34.
23. Mirzə Adıgözəlbəy. «Qarabağnamələr». Bakı: 1950, s.59.
24. Mirzə Camal Cavanşir. Qarabağ tarixi. Bakı: 1959, s.48-49.
25. Mahmudov Y., Kərimov Ş. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı: 2009.
26. Məmmədov N. Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə. Bakı: 2005.
27. Описание Карабахской провинции составление в 1823 г. Тбилиси, 1866.
28. Petruşevski İ.P. Dağlıq Qarabağ kəndlisinin xristianlaşdırmaya qədər inancı. Bakı: 1930.
29. «Şərq xalqları» jurnalı, №1, 1920, oktyabr, s.49.
30. Шавров Н.Н. Новая угроза русскому делу в Загафгазия СПб, 1911, с.59-60.
31. Şükürov K. Azərbaycan tarixi. Bakı: 1997.
32. Международная политика новейшего времени в договорах, нотах и декларациях, ч. III, в.I, М.: 1928.
33. «Южный Кавказ» qəzeti, 1912-ci il fevral (Musalyan S.Q. «Uzaq Zəngəzurda»).
34. Зелинский С.П. Экономический быт государственных крестьян Зангезурского уезда Елизаветпольской губерни. Т. IV, Тифлис: 1886, с.10.
35. Vinoqradov V. Üzeyir Hacıbəyov və Azərbaycan musiqisi. M.: 1938, s.9.
36. Yüzbaşov R., Əliyev R., Sədiyev Ş. Azərbaycanın coğrafi adları. Bakı: 1972, s.69-64.
37. Записки А.П.Ермолова 1798-1826. М.: 1991, s.382.
38. Yüzbaşov R. Dağlıq Qarabağ Muxtar Vilayətinin toponimikası. «Az.SSR EA Xəbərləri». 1969, №2, s.92-93.
39. Скипитски М.А. Карабахские казанные летние пастбища… т.IV. Тбилиси: 1899, с.35.

## ИЗ ИСТОРИИ УЕЗДОВ КАРАБАХСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА

**Н.Р.МАМЕДОВ**

### РЕЗЮМЕ

В статье представлена краткая сжатая информация о Шушинском, Джебраильском, Зангезурском, Джаванширском уездах Карабахского региона Азербайджана, исследованы природно-географические особенности территории, населения, хозяйственной жизни Карабаха. Анализированы так же социально-политические процессы, происходившие в этом регионе Азербайджана.

**Ключевые слова:** Российская империя, политика, экономика, общество, Карабах, уезд, Азербайджан

## FROM THE HISTORY OF UYEZDS IN THE GARABAGH REGION OF AZERBAIJAN

**N.R.MAMMADOV**

### SUMMARY

The article provides brief information about Shusha, Jabrayil, Zangazur, Javanshir uyezds of the Garabagh region of Azerbaijan. The natural-geographical features of the territory, as well as its population, economy and the socio-political processes occurring in the region are analyzed.

**Key words**: the Russian Empire, political, economic, social, Garabagh, uyezd, Azerbaijan